# Çingiz Əlioğlu poeziyasının erkən dövründə avanqard axtarışlar

**Səbirə Müzəffərli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: sebirememmedova50@gmail.com

**Annotasiya.** XX əsrin əvvəllərindən formalaşan və konservativ dəyərləri inkar edən avanqardizm cərəyanı Azərbaycanda da öz yerini almışdır. Yaradıcılığında avanqard ruhun hökm sürdüyü şairlərdən biri də Çingiz Əlioğludur. Məqalədə Çingiz Əlioğlu yaradıcılığının erkən dövrlərində qələmə aldığı şeirlər əsasında müxtəlif istiqamətdə təhlillər yer alıb. Şeirlər mövzu, ideya, forma və məzmun cəhətdən interpretasiya olunub. Şairin istifadə etdiyi sadə və mürəkkəb məcazlar, poetik elementlər və poetik sintaksis, onların işlənmə məqamları vurğulanıb.
**Açar sözlər:** avanqard, sərbəst şeir, Çingiz Əlioğlu, obraz, forma, rakurs

**Məqalə tarixçəsi:** göndərilib – 10.03.2022; qəbul edilib – 18.03.2022

# Avant-garde searches in the early period of Chingiz Alioglu's poetry

**Sabira Muzaffarli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: sebirememmedova50@gmail.com

**Abstract.** The trend of avant-garde, which has been formed since the beginning of the 20th century and denies conservative values, has also found its place in Azerbaijan. Chingiz Alioglu is one of the poets whose work is dominated by avant-garde spirit. The article contains analyzes in various directions based on the poems written by Chingiz Aliyoglu in his early years. The poems are interpreted in terms of theme, idea, form and content. The simple and complex metaphors used by the poet, poetic elements and poetic syntax, points of their development are emphasized.
**Keywords:** avant-garde, free poetry, Chingiz Alioglu, image, form, perspective

**Article history:** received – 10.03.2022; accepted − 18.03.2022

## Giriş / *Introduction*

Avanqard meyillər Azərbaycan poeziyasına XX əsrin əvvəllərindən gəlmiş, sənətkarların poetik fəaliyyətində öz izlərinin görünməsinə müvəffəq olmuşdur. Avanqard poeziya müstəqillik dövrü Azərbaycan ədəbiyyatının prioritet mövzularından biri kimi müəyyənləşdirilmişdir. “Müasir dövrdə avanqard klassik təqlidi sənət növlərindən fərqli, çağdaş insanın fərqli psixologiya və həyat tərzinə uyğun yaradıcılıq üsulu hesab edilir” [1].

Avanqard – (avant-garde) fransız sözündən götürülmüş, yenilik gətirən, yeni moda formalaşdıran hərəkat kimi mənalandırılır. “Avanqard mövqe bu ki, - öndə sənətdir, yaradılışdır; arxada – “heç nə”, qaranlıq bilmərrə qaçılası uçurumlar... - lap elə oradan gəlsək də, orada, oraya dönəcəyimiz yox; “hər şey irəlidə”: - Sənətdə, sabahdadır, məhz onun yaratdığı, yaradacağıdır...” [7, s.57]. Müasirlik, özündən əvvəl cızılan sxemləri pozma, keçmişin realistik ənənələrinə yeni nəfəs vermə, fərdi yanaşma, fərqli dünyaduyumu avanqardizmin və öz ətrafında topladığı avanqardların özünəxas xüsusiyyətləridir.

Çağdaş Azərbaycan poeziyasında öncül rakurs, avanqard ruh bütün yaradıcılığı boyu novator missiyasını davam etdirən Rəsul Rza və onun ədəbi məktəbinin davamçıları sayılan Əli Kərim,

Fikrət Qoca, Ələkbər Salahzadə, İsa İsmayılzadə kimi ünlü qələm ustalarının poetik panoramasında özünü büruzə vermiş və irəliləyən illərdə daha da qabarıq forma almışdır. "Avanqard sənət-açıq savaş niyyətilə sənəti silaha çevirməkdir. Bizdə 10-15 ildir ki, avanqard şeir açıq qapıları döyür" [6, s.113].

**Əsas hissə / *Main Part***

Şeir sənətində avanqard küləyin əsdiyi sənətkarlardan biri də milli özünə qayıdış dönəmində ədəbiyyata ilk yaradıcılıq qədəmlərini atan, poetik üslubu və formalizmi ilə seçilən, yaradıcılığında Rəsul Rza məktəbinin davamçısı sayılan Çingiz Əlioğludur. Ömrünün gənc çağlarından üzü bəri qələmini özünətərz formada sınayan Çingiz Əlioğlu 60-dan çox kitabın müəllifidir. Əsərləri həm ölkə daxilində, həm də ölkə xaricində müxtəlif dillərə tərcümə olunmuş və çap edilmişdir. Mövzu əlvanlığı, fərdi düşüncə, orijinal işlənmə tərzi, şeirin texniki üsullarından məharətlə istifadə onun poeziyasına zənginlik verən məziyyətlərdəndir.

Öz duyğularını naturalistcəsinə yazıya alan uğurlu olan şair şeirə gəlişini oxucuları ilə bu cür bölüşmüşdür.

"Mən şeir yazmağa haçan başladım?...

...İlk şeirimi həyatın sərt prozasını duymağa başlayandan xeyli sonra yazdım, iyirmi yaşım vardı onda, Neft və Kimya İnstitutunun III kursunda oxuyurdum, o vaxt, həmən ilk şeiri Fikrət Qoca çap elədi, sonra xalq şairi, ustadım Rəsul Rza uğur olsun, dedi mənə kitablarım çıxdı, dost qazandırdı, düşmən gətirdi, şeirlərim mənə, amma yenə də dostların sayı qat-qat çox oldu, üzüm və qapılar açıldı, əllər sıxdı əlimi..." [2, s.6]

Daim yenilik axtarışında olan, əldə etdiyi ən kiçik tapıntını belə şeirləri vasitəsilə oxucularına ötürən sənətkarın poeziyası avanqard ruhla çərçivələnmişdir.

Yaradıcılığının ilk bəhrəsi olan "Nikbinlik" şeirlər kitabı 1969-cu ildə "Gənclik" nəşriyyatında çapdan çıxmışdır. Həcmcə kiçik, mənaca böyük olan şeirlər kitabı səkkiz şeirdən ibarətdir.

*Nikbin ol qardaş*
*nikbin.*
*Əbədi kədərini*
*Alnını çapan*
*Bircə anlıq da olsa,*
*Var gücüylə işıq saçan*
*Meteor kimi nikbin.*
*Gecənin üzünə soyuq-soyuq*
*qımışan.*
*Neon lampalarının rəngbərəng*
*Sevinci tək.*

***

*Nikbin ol qardaş,*
*nikbin.*
*Kədər köbəli*
*sevincləri istəmə... [3, s.13]*

Dünyanı pozitiv görən sənətkar bu şeir parçasında oxucunu kədərdən uzaqlaşmağa, daim sevinc, xürrəmlik axtarışında olmağa dəvət edir. O, xəyalən söhbətləşdiyi oxucuda güclü oyanış etmək, özündə olanı qarşısındakına ötürmək üçün müxtəlif boyalı bədii təsvir vasitələrindən istifadə etmişdir.

Öz daxilinə boylanıb, içindəkiləri sözə gətirib, poetikləşdirmək şairdən xüsusi istedad tələb edir. "Rəsul Rza doğru qənaətə gəlir ki, poeziya qanuniləşmiş ölçü və qafiyə deyil, fikrin, hissin, qavrayışın poetik ifadəsidir ki, bu da başqa komponentlərlə birlikdə sözü şeirə çevirir" [5, s.256].

*Elə hey kiminsə*
*gələcəyindən qorxuram.*
*Qəfil deyəcəyi*
*bir neçə kəlmə*
*sözündən qorxuram.*
*Düşünürəm ki,*
*indi bu saat*
*oxucular gələcək.*
*Amansız müfəttişlər kimi*
*başımın üstünü kəsəcəklər.*
*"Sənin istedad biletin*
*yoxdur" - deyə,*
*yapışaraq yaxamdan*
*hansı bir naməlum,*
*qafiyə dayanacağındasa*
*məni itələyib*
*düşürəcəklər gecəyə [3, s.25].*

Yuxarıda misal gətirdiyimiz poetik parça sanki öz istedadından bixəbərliyinin, özündən narazılığının ifadəsi kimi təcəssüm tapmışdır. O, bu misralarda üz tutduğu üslubun sərbəstliyindən, fikirlərinin düzgün ifadə olunmamasından narahatdır. Ancaq aydındır ki, hər bir üslub müəllifin özüdür və "canlı orqanizmi xatırladan hər şeir fərdi olduğu üçün onun poetik libası da özünəməxsusdur, digər şeirlərə bənzəmir" [5, s.258].

Çingiz Əlioğlu modern şairdir. Dövrün ən ümdə problemləri, çağdaş məsələlər, insanları düşündürən, aktuallığını heç zaman itirməyəcək mətləblər onun şeir rübabının şah pərdəsində vüqarla səslənir. Bu cür fikirlərin sətir-sətir dolaşdığı "Paxıllıq", "Unuda-unuda gedirik elə", "Ağlayan qadın", "Qoca dünya", "Əzizlərimiz", "Alpinist dostumun söhbətlərindən" və bu kimi başqa poetik örnəklər şairin düşüncə qalaktikasının bariz nümunələri hesab olunur. Sözlər ətrafında dövrə vuran, sözün nazını çəkən Çingiz Əlioğlu həyat hadisələrinə orijinal baxış bucağından baxaraq sənətkarlıq süzgəcindən keçirir.

Mənaaltı sətirlər, hətta sözlərarası boşluqlarda gizlənən şair qələmi öz "insan konsepsiyası"nı irəli sürür.

*Zirvə yollarında dəyişir insan,*
*Ağıllı birisi qəfil kütləşir.*
*Hamıyla adam tək* oturub-duran,
*Bir ayrı birisi dönüb bütləşir [2, s.71].*

Poeziya insanı insanlığa çağırır. Misralardan da aydın olur ki, şeirin əsas tənqid hədəfi daim zirvə eşqində olan "ikiqütblü" insanoğlunun davranışı və dəyişimidir. Şairə görə iki cür insan vardır:

*Kimisi dərədən zirvəyə qalxır,*
*Kimisi zirvədən dərəyə baxır.*
*Kiminsə gözünə qaranlıq axır,*
*Kiməsə zirvənin günəşi gülür!.. [2, s.73]*

Həyati ziddiyyətləri daha qabarıq əks etdirmək üçün şair təzadlı fikirlərə üz tutmuş, düşüncəsini sözlərin hökmü ilə təcəssüm etmişdir. Misralar daxilində, hətta pauzalar da belə başdan sonacan tənqid havası hiss olunsa da sonda şair optimist ruhunu uca tutaraq şeirini bu cür sonlandırır.

*Ən uca zirvələr-sonu görünməz,*
*Göylərdən də uca insan fikridir.*
*İnsan, tarix boyu, bitib-tükənməz,*
*Əzablı bir yolla, öz fikrindəki*
*Uca zirvələrin fəthinə gedir... [2, s.73]*

Çingiz Əlioğlu sözünü birbaşa deyən, sərbəst fikirlər söyləyən şairdir. Azad düşüncə, azad yaşam onun şeirlərinin ayrılmaz motividir.

*İstədiyin kimi düşünürsənsə,*
*Düşündüyün kimi danışırsansa,*
*Danışdığın kimi varsansa,*
*Azadsan demək [2, s.9].*

Qəlbinin bütün qapılarını oxucuya açan şairin əsas məqsədi insanı daim azad olmağa, mövcud cəmiyyətin fikir əsarətindən qurtulmağa dəvət etməkdir.

Çağdaş Azərbaycan poeziyasının özül temalarından biri də “ağac” mövzusudur. “Ağac obrazı mifik yaddaşda, eləcə də yazılı ədəbiyyatda həm də “Həyat ağacı” (həmçinin “Nəsil ağacı – Şəcəre-yi-Tuba”) kimi təqdim olunur və bu təqdimatda əsasən artım, yaşama bağlılıq, həyat qaynağı, əbədiyyət anlamları ifadə edir” [4]. Poetik fəaliyyətində sərbəst şeirə meyil edən və duyğularını bu axara yönəldən Çingiz Əlioğlu yaradıcılığında “ağac” məfhumuna poetik anlam vermiş və qəhrəmanlıq təcəssümü kimi dəyərlənən “Ömür ağacı”, “Ağaclar...qanadlar”, “Şamlıda” şeirlərində düşüncələrini bu obraz vasitəsilə sərgiləmişdir.

*Min əllə, min köklə tutub torpağı,*
*O sinə qəribdir tufana, selə.*
*Dumanlı, buludlu məğrur papağı*
*Yellənir səmada belədən belə [2, s.184].*

“Qoca Çinarın əfsanəsi” poemasından gətirilmiş nümunədə baş obraz illərlə Qarabağ elində torpağa sarılan şairin bədii sözlərlə bəzədiyi, mənalandırdığı, qocaman Çinardır. Bədii təxəyyülün məhsulu kimi yaradılan və poetik ifadələrlə rənglənən bu “dədə Çinar” tarixin bütün çətin sınaqlarından çıxmış Azərbaycanı və onun dözümlü xalqını xatırladır. Rəsul Rza lirikasında simvolik obraz kimi xarakterizə olunan “Çinar” Çingiz Əlioğlu poeziyasında da həm Azərbaycanın rəmzi, həm də xalq əzəmətinin ifadəsi kimi səciyyələnir.

*Beləcə döyüşdü böyük bir ölkə*
*Nə arxa, nə də ki, ön cəbhə vardı.*
*Vətəni sarıyan odlu səngərlər*
*Uzanıb, çinara gəlib çatırdı [2, s.191].*

## Nəticə / *Conclusion*

Bir sözlə, Çingiz Əlioğlu poeziyası yalnız ideya və mövzu əlvanlığına görə deyil, metaforik cizgilərin və anakoluflar, inversiyalar kimi sintaktik fiqurların zənginliyi baxımından müasir döv-

rün parlaq nümunələri hesab oluna bilər. Fərdi üslubu, bədii dəyəri və yenilikləri ilə seçilən avanqard şair – Çingiz Əlioğlu poeziyası daim diqqət mərkəzindədir.

**Ədəbiyyat / *References***


1. Asif Hacılı. Avanqard ədəbi hərəkatı // manera.az / index. php?newsid=4182
2. Çingiz Əlioğlu. Günəşli dayanacaqlar. Bakı: Gənclik, 1984.
3. Çingiz Əlioğlu. Nikbinlik. Bakı: Gənclik, 1969.
4. Esmira Fuad. Səhəndin “Sazımın sözü” poemalar silsiləsində “ağac” mifopoetik obrazı // xalqcebhesi.az /news/ southazerbaijan/ 47445.html
5. Rafiq Yusifoğlu. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Şirvannəşr, 2009.
6. Tehran Əlişanoğlu. Analiz yazıları. Tənqid.net N-2 (2’2006).
7. Tehran Əlişanoğlu. T. Mustafayinin Ədəbiyyat söhbəti. Bakı: Alatoran, 2020.


## Авангардные поиски в раннем периоде творчества Чингиза Алиоглу


**Сабира Музаффарли**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: sebirememmedova50@gmail.com



**Резюме**. Тенденция авангарда, сформировавшаяся с начала XX века и отрицающая консервативные ценности, также нашла свое место в Азербайджане. Чингиз Алиоглу – один из поэтов, в творчестве которых преобладает дух авангарда. Статья содержит анализы в различных направлениях на основе стихотворений, написанных Чингизом Алиоглу в ранние годы его жизни. Стихи интерпретируются с точки зрения темы, идеи, формы и содержания. Подчеркиваются используемые поэтом простые и сложные метафоры, поэтические элементы и поэтический синтаксис, точки их развития.



**Ключевые слова:** авангард, свободный стих, Чингиз Алиоглу, образ, форма, ракурс